39 (1396) 2-8 oktyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "AZƏRBAYCAN VƏ İTALİYA ƏSL STRATEJİ TƏRƏFDAŞLARDIR"

"İtaliya Prezidenti cənab Mattarella Azərbaycanda ikinci dəfədir. Birinci rəsmi səfər 7 il bundan əvvəl baş vermişdir". Bu sözləri Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı bildirib: ***"Bugünkü səfər onu göstərir ki, İtaliya-Azərbaycan əlaqələri çox uğurla inkişaf edir və biz əsl strateji tərəfdaşlarıq"***.



## "BİR ÇOX ÖLKƏLƏRİN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ ÖZ TÖHFƏMİZİ VERMİŞİK"

"Energetika sahəsində (İtaliya ilə - red.) bir çox önəmli layihələr icra edilmişdir. Xüsusilə Azərbaycan neftini və qazını İtaliyaya ixrac etməklə biz dünya bazarlarına geniş həcmdə öz təbii resurslarımızı göndərə bilmişik".

Bu sözləri Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatında söyləyib. ***"Eyni zamanda, bir çox ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəmizi vermişik"***, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

## "AZƏRBAYCAN VƏ İTALİYA UZUN İLLƏR ETİBARLI TƏRƏFDAŞLAR KİMİ BİR-BİRİNİ DƏSTƏKLƏYİB"

"Azərbaycan nefti İtaliyanın neft balansında birinci yerdədir, Azərbaycan qazı ikinci yerdədir. Yəni, bu əməkdaşlıq həm güclü tərəfdaşlıqdan xəbər verir".

Bu sözləri Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatında söyləyib.

O, deyib: ***"Biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı.***

***Bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir"***.

Dövlətimizin başçısı vurğulayıb ki, iqtisadi sahədə İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır.

## İTALİYA-AZƏRBAYCAN UNİVERSİTETİNİN İLK TƏDRİS KORPUSLARININ AÇILIŞI OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella oktyabrın 1-də Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışında iştirak ediblər. Tədris binalarında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı, birinci xanım və İtaliya Prezidenti ölkəmizdə səfərdə olan italyan universitetlərinin rəhbərləri, İtaliya-Azərbaycan Universitetinin professorları və tələbələri ilə görüşüblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Yevlax Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

* * * *

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anım Günü ilə əlaqədar Gəncə Memorial Kompleksində saat 12:00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də "BakuBus" MMC-nin Gəncə Avtoparkının açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Gəncə Stadionunun açılışında iştirak edib.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də – Anım Günündə Gəncə Memorial Kompleksinin açılışında iştirak edib.

## "TAP-IN, CƏNUB QAZ DƏHLİZİNİN AÇDIĞI YOL BU GÜN DAHA BÖYÜK LAYİHƏLƏRƏ YOL AÇIR"

"Mən Prezident Mattarellaya bu gün məlumat verdim ki, biz hazırda Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı ilə bağlı işləyirik. Elektrik xətlərinin çəkilməsi ilə bağlı texniki-iqtisadi əsaslandırma hazırlanmaqdadır, yəqin ki, yaxın vaxtlarda hazır olacaq".

Bu fikirləri Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə mətbuat bəyanatında səsləndirib.

Dövlətimizin başçısı qeyd edib: ***"Beləliklə, TAP-ın açdığı yol, Cənub Qaz Dəhlizinin açdığı yol bu gün daha böyük layihələrə yol açır"***.

## "İTALİYA HƏR ZAMAN AZƏRBAYCANIN Aİ İLƏ ƏLAQƏLƏRİNİN İNKİŞAFINA DƏSTƏK VERİB"

"İtaliya hər zaman Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək vermişdir, bu gün də biz bunu hiss edirik". Bu barədə Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə mətbuata bəyanatında bildirib.

Son vaxtlar Avropa İttifaqı-Azərbaycan əlaqələrində müsbətə doğru addımlar atıldığını, bunun da bizi təbii olaraq məmnun etdiyini söyləyən dövlətimizin başçısı vurğulayıb ki, bir sözlə, bizim strateji tərəfdaşlığımız həm rəsmi sənədlərdə, həm həyatda, həm də praktiki işlərdə özünü büruzə verir.



## "BU GÜN İTALİYA-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN İNKİŞAFI GÖZ QABAĞINDADIR"

Bu sözləri Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella ilə geniş tərkibdə görüşdə söyləyib. Dövlətimizin başçısı bildirib: "Bizim əməkdaşlığımız çoxşaxəlidir, demək olar ki, bir çox sahələri əhatə edir, energetikadan başlamış sənaye istehsalına qədər. Hazırda təhsil sektorunu da əhatə edən əməkdaşlıq doğrudan da strateji əhəmiyyət daşıyır".

## "BİZ ÖLKƏLƏRİMİZ ARASINDAKI STRATEJİ TƏRƏFDAŞLIĞA MÜHÜM DƏYƏR VERİRİK"

Bunu İtaliya Prezidenti Sercio Mattarella Prezident İlham Əliyev ilə geniş tərkibdə görüşdə bildirib.

"Bu münasibətlər getdikcə daha da inkişaf edir və bir çox sahələri əhatə edir, gələcək üçün də çox böyük əhəmiyyətə malikdir", - deyə İtaliya Prezidenti əlavə edib.

O, deyib: ***"Sabah İtaliya ilə Azərbaycan arasında mədəniyyət, təhsil sahələrində mühüm bir gün olacaqdır və biz sabah səhər birgə tədbirdə iştirak edəcəyik. Prezident Əliyevlə atdığımız addım bizim qarşılıqlı anlaşmaya, dostluğa, əməkdaşlığımıza xidmət edən addım olacaqdır ki, İtaliya bu dostluqdan çox fərəhlənir və bunu ən yüksək səviyyəyə qaldırmaq fikrindədir"***.

## "İDMAN PAYTAXTI" GƏNCƏDƏ III MDB OYUNLARININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB



Sentyabrın 28-də Gəncədə III MDB Oyunlarının təntənəli açılış mərasimi keçirilib.

Tədbirdən əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış uşaqlarla görüşüblər.

Sonra dövlətimizin başçısı və birinci xanım açılış mərasimini izləyiblər.

Qeyd edək ki, Gəncə şəhəri III MDB Oyunlarının "İdman Paytaxtı" seçilib. Bu qərar MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul edilib.

Oktyabrın 8-dək davam edəcək III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçiriləcək və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə aparacaqlar. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların da xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

Xatırladaq ki, I MDB Oyunları 2021-ci ildə Rusiyanın Kazan şəhərində, II Oyunlar isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə keçirilib.

## "Azərbaycan Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi"



"Azərbaycan Zəfər müharibəsindən dərhal sonra Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi.
2020-ci il noyabrın 10-u Ermənistanın kapitulyasiyası və təqribən 30 ilə yaxın işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası kimi tarixə düşdü".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bildirib.
*"Azərbaycan Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan etdi"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "Dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz"

"Yaşıl keçidə ciddi şəkildə sadiq qalmaqla yanaşı, qarşımıza real olmayan hədəflər qoymamalıyıq". Bunu Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bildirib. Dövlətimizin başçısı, həmçinin vurğulayıb ki, dünya bu gün və yaxın gələcəkdə mədən yanacaqları olmadan yaşaya bilməz.

## "Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq"

"Enerji təhlükəsizliyi sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəlidir. Azərbaycan bu məqsədlərin qlobal səviyyədə irəlilədilməsində fəal rol oynamaqda davam edir".
Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı ifadə edib.
*"Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq"*, - deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

## "Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur"

"Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Bununla Azərbaycan boru kəməri vasitəsilə qaz təmin edən ölkələrin sırasında dünyada birinci yeri tutur".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, bu, Avropada və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinin təmin edilməsində və təchizat marşrutlarının şaxələndirilməsində bizim strateji rolumuzu əks etdirir.

## "Gəlin, birlikdə ədalətin selektiv olmadığı bir dünya quraq"

Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı beynəlxalq ictimaiyyətə çağırış edib. Dövlətimizin başçısı bildirib: "Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

## Azərbaycan və Polşa parlament nümayəndələri əməkdaşlıq münasibətlərini müzakirə ediblər



Sentyabrın 30-da Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Sevinc Fətəliyeva Polşa Milli Assambleyasının nümayəndə heyəti ilə görüşüb.
Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Sevinc Fətəliyeva dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin həm dövlət başçıları, həm də parlamentlər səviyyəsində dinamik şəkildə inkişaf etdiyini deyib. Bildirilib ki, mədəni, siyasi, diplomatik və humanitar sahələrdə yüksəksəviyyəli münasibətlər mövcuddur. Bu əlaqələrin möhkəmləndirilməsi xalqlarımız arasında dostluğun və qarşılıqlı etimadın daha da dərinləşməsinə xidmət edəcək.
Öz növbəsində qonaq Polşa Milli Assambleyasının Polşa-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun sədri Pşemışlav Vitek vurğulayıb ki, parlamentlərarası əməkdaşlıq münasibətlərimizin inkişafında əhəmiyyətli rola malikdir. Biznes və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi, işgüzar dairələr arasında birbaşa əlaqələrin təşviqi ölkələrimiz arasındakı strateji tərəfdaşlığı daha da gücləndirəcək və qarşılıqlı iqtisadi maraqların təmin olunmasına mühüm töhfə verəcək.
Müzakirələrdə Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Asim Mollazadə, Sevil Mikayılova, Polşa-Azərbaycan parlamentlərarası əlaqələr qrupunun üzvləri Tomaş Qlovski, Rişard Vilk, Qjeqoj Matuşak çıxış edərək dövlətlərimiz arasındakı münasibətlərin tarixindən və parlamentlərarası əlaqələrin inkişaf perspektivlərindən bəhs ediblər.

## "Ermənistanla danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına görə müsbət nəticələr verdi"

Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı Ermənistanla sülh danışıqları ilə bağlı fikirlərini bölüşüb.
Dövlətimizin başçısı deyib ki, biz beynəlxalq hüquqa əsaslanan beş təməl prinsipi irəli sürdük, sülh müqaviləsi layihəsini təqdim etdik. Daha sonra layihə mətni üzrə 2022-ci ilin oktyabrından 2025-ci ilin yayına qədər davam edən danışıqlar prosesi bizim təşəbbüsümüzlə başladı. Müxtəlif təxribatlara baxmayaraq, danışıqlar yalnız ikitərəfli əsasda aparıldığına, hər hansı bir kənar müdaxilə olmadığına görə müsbət nəticələr verdi.

## "ATƏT-in Minsk qrupu öz missiyasını yerinə yetirə bilmədi"

"1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu öz missiyasını yerinə yetirə bilmədi".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı söyləyib.
Dövlətimizin başçısı qeyd edib: *"Onun (Minsk qrupu – red.) həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar"*.

## "ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi etimad və əməkdaşlığı möhkəmləndirərdi"

"Prezident Trampın 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəliş şəklində Azərbaycana qarşı tətbiq olunmuş sanksiyaların icrasını dayandırması qərarı da tarixi addımdır".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı deyib.
Dövlətimizin başçısı vurğulayıb ki, ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi ikili standartların mirasına son qoymaqla, Azərbaycanın qlobal təhlükəsizlik və sabitliyə töhfə verdiyi bir dövrdə etimad və əməkdaşlığı möhkəmləndirərdi.

## "Azad edilmiş torpaqlarda artıq 50 mindən çox insan yaşayır, işləyir və təhsil alır"

"Ermənistan işğal dövründə yüzlərlə şəhər və kəndimizi yerlə-yeksan etdi, 65 məscidi məqsədli şəkildə dağıtdı. Hərbi cinayətkarlar tərəfindən 30 ilə yaxın müddətdə idarə olunan Ermənistanın siyasəti bu idi". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı səsləndirib. *"Biz isə yerlə-yeksan edilmiş kənd və şəhərləri yenidən qururuq. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır"*, - deyə dövlətimizin başçısı bildirib.

## "2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpa olunan mənbələr hesabına təmin olunacaq"

"Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı deyib. Dövlətimizin başçısı qeyd edib ki, 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin olunacaq.

## "Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır"

"Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı".
Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı zamanı bildirib.
Dövlətimizin başçısı vurğulayıb ki, bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

# Azərbaycan-Əlcəzair ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi perspektivləri müzakirə edilib



Azərbaycan maliyyə naziri Sahil Babayev Əlcəzair Xalq Demokratik Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Zakia İğhilini qəbul edib.
Bu barədə Maliyyə Nazirliyindən bildirilib.
Tanışlıq xarakteri daşıyan görüşdə Azərbaycan ilə Əlcəzair arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub, əməkdaşlığın daha da dərinləşdirilməsi perspektivləri müzakirə edilib.
S.Babayev enerji sahəsində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı investisiya təşəbbüslərinin dəstəklənməsinin, eləcə də ticarət əlaqələrinin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Mövcud investisiya göstəricilərinin hələlik aşağı olmasına baxmayaraq, qeyri-neft və qaz sektorunda əməkdaşlıq üçün böyük potensialın olduğu, logistika və turizm imkanlarının, hava nəqliyyatı əlaqələrinin, həmçinin bərpa və tikinti layihələrinin nəzərdən keçirilməsinin əhəmiyyəti qeyd olunub. Görüşün sonunda maliyyə naziri səfirə Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

# "PAŞA Holding"in təşkilatçılığı ilə "INMerge" İnnovasiya Sammiti başa çatıb

29-30 sentyabr 2025-ci il tarixlərində "PAŞA Holding"in təşkilatçılığı ilə Bakıda keçirilən "INMerge" İnnovasiya Sammiti başa çatıb. Sammitin sonuncu günü maraqlı çıxış və müzakirələrlə yadda qalıb.

Günün birinci yarısında "Netflix" şirkətinin həmtəsisçisi Mark Randolf şirkətin ideyadan uğurlu biznesə qədər keçdiyi yoldan danışıb, eləcə də startapların biznes qurarkən hansı vacib məqamları nəzərə almalı olduqları ilə bağlı məsləhətlər verib. Eksperimentlər və yaradıcı sistemlərin gələcəyin formalaşdırılmasındakı roluna həsr olunan paneldə "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov, "Netflix" şirkətinin həmtəsisçisi Mark Randolf, Massaçusets Texnologiya İnstitutunun professoru Hal Qregersen və "Pixar" şirkətinin həmtəsisçisi Ed Katmul çıxış ediblər.

Bundan əlavə, gün ərzində vençur kapitalının regional vəziyyəti, marketinq və sosial medianın yerli biznes və mədəniyyətə təsiri, süni intellektin dövrün reallığına çevrilməsi, həmçinin datanın və enerji sektorunun müasir biznes trendləri ilə uzlaşmasına dair panel sessiyaları keçirilib. Sessiyalarda iştirak edən liderlər müxtəlif ölkələrdəki təcrübələrin qlobal trendlərlə uzlaşmasını, eyni zamanda yenilənən dünyanın reallıqlarına uyğun addımların atılmasının əhəmiyyətini vurğulayıblar.

Sammit müxtəlif ölkələrdən olan 40 startapın mübarizə apardığı InBattle Startap Müsabiqəsinin qaliblərinin mükafatlandırılması ilə başa çatdı. Onların arasında MULK PROTOCOL adlı startap əsas mükafata layiq görüldü.

# "Azərbaycan quruda və Xəzər akvatoriyasında 6 QVt gücün istismara verilməsini planlaşdırır"

"2032-ci ilə qədər Azərbaycan quruda və Xəzər akvatoriyasında 6 GVt gücün istismara verilməsini planlaşdırır ki, onun 4 QVt-ı mərhələli plan çərçivəsində "Xəzər-Qara dəniz-Avropa" "yaşıl enerji" dəhlizi vasitəsilə ixrac olunacaq. Bu isə təqribən 4,5 milyon ton istixana qazı emissiyalarının azaldılmasına imkan verəcək".



Bunu Azərbaycanın energetika naziri Pərviz Şahbazov Bakı İqlim Fəaliyyəti Həftəsində çıxışında bildirib.

Onun sözlərinə görə, Transxəzər yaşıl energetika dəhlizinin, həmçinin Naxçıvan və Ermənistan üzərindən "Azərbaycan-Türkiyə-Avropa" dəhlizinin və "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan" marşrutunun gerçəkləşdirilməsi ölkənin əsas prioritetlərindən biri olaraq qalır.

P.Şahbazov vurğulayıb ki, bu miqyaslı layihələr regional enerji sistemlərini balanslaşdırmağa, bərpa olunan enerji mənbələrinin payını artırmağa, enerji təhlükəsizliyini möhkəmləndirməyə, tullantıları azaltmağa və Azərbaycanın qlobal iqlim fəaliyyətlərindəki rolunu gücləndirməyə imkan verəcək.

# "PAŞA Bank" nüfuzlu "İNMerge" innovasiya sammitinin platin sponsorudur




Ölkənin aparıcı korporativ maliyyə institutu olan "PAŞA Bank", regionun ən böyük innovasiya tədbiri – "İNMerge" sammitinə platin sponsor qismində dəstək göstərir.

"PASHA Holding"in təşkilatçılığı ilə 29–30 sentyabr 2025-ci ildə Bakı Konqres Mərkəzində keçirilən sammitin məqsədi startaplarla investorları bir araya gətirərək səmərəli əməkdaşlıq üçün platforma yaratmaq, ekosistem iştirakçıları arasında ideya və təcrübə mübadiləsini təşviq etməkdir. Tədbirdə fintex, telekommunikasiya, e-ticarət və digər sahələrdən olan qlobal liderlər və innovatorlar görüşüb. Sammit iştirakçılar üçün beynəlxalq tərəfdaşlıqlar qurmaq və regionun innovasiya gündəmini formalaşdıran simalarla ünsiyyət imkanı yaradan strateji şəbəkələşmə mərkəzinə çevrilib.

Bu il "PAŞA Bank" sammit çərçivəsində "Məsuliyyətli bankçılıq" mövzusuna həsr olunmuş vertikala ev sahibliyi edir. Burada məsuliyyət bank sektorunda sadəcə bir standart və ya meyil kimi deyil - bütövlüyün, etibarın və uzunmüddətli dəyər yaratmağın ayrılmaz tələbi kimi təqdim olunur.

Tədbirin diqqətçəkən məqamlarından biri isə "PAŞA Bank" stendində təqdim olunan interaktiv "CX Hero Challenge" oyunudur. Məsuliyyətli bank olaraq innovasiyanın müştəri mərkəzli mahiyyətini vurğulayan "PAŞA Bank" bu oyun vasitəsilə iştirakçılara müxtəlif biznes personalarının baxış bucağından bank xidmətlərini sınaqdan keçirmək, xal toplamaq və rəqəmsal həllərin üstünlüklərindən yararlanmaq imkanı təqdim edir.

"PAŞA Bank"ın İdarə Heyətinin sədri Cavid Quliyev vertikalın açılışı zamanı bildirib ki, Bankın "INMerge" sammitində iştirakı həm regionda məsuliyyətli bankçılıq və innovasiya standartlarını yüksəldir, həm də bankın müştəri yönümlü, texnoloji və strateji liderliyini bir daha təsdiqləyir.

# Azərbaycanın xarici iqtisadi mövqeyi karbohidrogen qiymətlərindəki dəyişikliklərə baxmayaraq, sabit qalıb

Trend bu barədə Asiya İnkişaf Bankına (AİB) istinadən xəbər verir.

"Maliyyə gəlirlərinin yüksək olması büdcə profisitini qorumağa imkan verib. 2025-ci ilin birinci yarısında gəlirlər 2024-cü ildəki ÜDM-in 31,4 faizindən 31,9 faizə yüksəlib, bu isə vergi yığımının artması və Dövlət Neft Fondunun köçürmələrinin çoxalması ilə bağlıdır. Xərclər isə 2024-cü ildə ÜDM-in 26,8 faizindən 2025-ci ildə 27,5 faizə yüksəlib, o cümlədən əsaslı xərclər 11,1 faiz, cari xərclər isə 7,5 faiz artıb. 2025-ci ilin ilk altı ayında büdcə profisiti ÜDM-in 4,4 faizini təşkil edib", - deyə hesabatda bildirilir.

AİB-in məlumatına görə, ölkənin xarici iqtisadi mövqeyi, neft və qaz qiymətlərindəki qeyri-sabitliyə baxmayaraq, güclü olaraq qalır. 2025-ci ilin birinci rübündə cari hesab 1,1 milyard dollar profisitlə bağlanıb ki, bu da ÜDM-in 6,5 faizi deməkdir.

*"Əmtəə ticarətinin həcmi 10 milyard dollar təşkil edib, bunun 6,2 milyard dolları ixrac, 3,8 milyard dolları isə idxaldır. Neft-qaz sektorundakı profisit digər məhsullar üzrə kəsiri kompensasiya edərək ümumi 2,5 milyard dollarlıq ticarət profisitini təmin edib. Qeyri-neft məhsullarının ixracı 11,8 faiz, idxal isə 8,2 faiz artıb. Bununla yanaşı, pul köçürmələri 22 faiz azalıb. Xidmətlər balansı isə kəsirli qalıb: ixrac 19,9 faiz artsa da, idxal 24,1 faiz yüksəlib",* - deyə hesabatda qeyd olunur.

# "Avropaya təmiz enerji çatdıra bilərik"

"Birlikdə çalışmaqla biz həm öz ehtiyaclarımızı ödəyə, həm də Avropaya təmiz enerji çatdıra bilərik".

Bunu COP29-un prezidenti və Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi Muxtar Babayev Bakı İqlim Fəaliyyəti Həftəsində (BCAW2025) çıxışı zamanı bildirib.

"Regionumuzda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında tərəfdaşlıq başladaraq zəngin külək və günəş potensialımızı açdıq. Birlikdə çalışmaqla biz həm öz ehtiyaclarımızı ödəyə, həm də Avropaya təmiz enerji çatdıra bilərik. Bu, iqlimə fayda verəcək, enerji təhlükəsizliyini artıracaq və bizə ixrac imkanları yaradacaq", - M.Babayev qeyd edib.



M.Babayev xatırladıb ki, Azərbaycan keçidin növbəti mərhələlərinin prinsiplərinə dair qlobal razılaşma əldə edib:

"Etibarlı, əlçatan və təmiz enerji sistemlərinin qurulması kimi vacib prioritetlərə beynəlxalq diqqəti yönəltdik. Qlobal enerji saxlama və şəbəkələr üzrə öhdəliyi qəbul etmişik. Bu öhdəlik 2030-cu ilə qədər qlobal saxlama gücünü altı dəfə artıraraq 1,5 min qiqavata çatdırmağı, 2040-cı ilə qədər isə 80 milyon kilometrdən çox yeni şəbəkə qurmağı hədəfləyir".

# Beynəlxalq əməkdaşlıq və təcrübə paylaşımı real dəyər yaradır

Bunu bp-nin metan proqramı üzrə meneceri Sonna Sathiamorti Bakı İqlim Fəaliyyəti Həftəsində (BCAW2025) çıxışı zamanı bildirib.

O qeyd edib ki, bp "Oil and Gas Climate Initiative" (OGCI) və OGC-nin üzvüdür, lakin qərarlarını birbaşa bu qurumlara bağlı olaraq vermir: *"Şirkət əsas qərarlarını dəyəri nəzərə alaraq verir və müxtəlif təşəbbüsləri üç istiqamətdə qiymətləndirir.*

*Birincisi, bp-nin əməliyyatlarına qoşulmaq və həmkar şirkətlər, yaxud beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdən gələn faydadır. OGCI-də 10–11 ildir ki, benchmarking və təcrübə paylaşımı aparılır".*



bp nümayəndəsi bildirib ki, ikincisi, şirkətin qeyri-işlədiyi ortaq müəssisələrdə performansı artırmağa kömək edə biləcək təşəbbüslərlə bağlıdır: *"Bu sahədə OMP kimi təşəbbüslər əhəmiyyətli rol oynayır və tərəfdaşlarla əməkdaşlıq üçün faydalıdır.*

*Üçüncüsü, bp metan sahəsində uzun müddətli təcrübəyə malik şirkət olaraq, yolun əvvəlində olan digər şirkətlərə və milli neft şirkətlərinə dəstək verə bilər. Bu məqsədlə Dünya Bankı və digər beynəlxalq təşəbbüslərlə layihələr həyata keçirilir".*

Sonna Sathiamorti vurğulayıb ki, bp bu təşəbbüslərin bir çoxuna qoşulub və əməkdaşlıqdan real dəyər əldə edir: *"Keçən il Beynəlxalq Enerji Agentliyi, Beynəlxalq Qaz İttifaqı, ITP, BMT və Dünya Bankı şirkətin təşəbbüslərini dəstəkləmək üçün tədbirlərdə iştirak ediblər".*

bp nümayəndəsi bildirib ki, fərqli baxışlar ola bilər, lakin BMT və Dünya Bankına dünya etibar edir və tərəfdaşlıqla işləməklə ən çox dəyər yaradıla bilər.

# SOCAR metan emissiyalarının monitorinqi üçün rəqəmsal texnologiyalar tətbiq edir

"SOCAR monitorinqin səmərəliliyini artırmaq və metan emissiyalarını azaltmaq üçün müasir rəqəmsal həllərdən və beynəlxalq tərəfdaşlıqdan aktiv şəkildə istifadə edir".

Bunu SOCAR vitse-prezidenti Hikmət Abdullayev Bakı İqlim Fəaliyyəti Həftəsində deyib.



Onun sözlərinə görə, şirkət BCGX ilə birlikdə "Methane AI" tool adlı ixtisaslaşdırılmış platforma hazırlayıb. Bu platforma infrastruktur və əməliyyat məlumatlarını, ölçmələrin nəticələrini birləşdirir və böyük həcmli informasiyanın kompleks təhlilini təmin edir. Nəticədə hesabatlılığın keyfiyyəti yüksəlib, texniki xidmət optimallaşdırılıb və SOCAR ötən il üzv olduğu OGP də daxil olmaqla beynəlxalq təşkilatların tələblərinə cavab verib.

H.Abdullayev qeyd edib ki, OGCI proqramı çərçivəsində "GHGSat" ilə əməkdaşlıq artıq konkret nəticələr verib: peyk məlumatları sayəsində emissiya mənbələri müəyyən edilib, yerindəcə operativ şəkildə aradan qaldırılıb, bu isə qazın sistemə qaytarılmasına və məhsul kimi realizəsinə imkan yaradıb. Beləliklə, şirkətin ekoloji təşəbbüsləri eyni zamanda nəzərəçarpan iqtisadi fayda da gətirir.

# "SOCAR Green" enerji layihələrində beynəlxalq maliyyə institutlarının dəstəyini vacib sayır

"Azərbaycanın enerji keçidi üçün əsas çətinliklərdən biri şəbəkənin optimallaşdırılmasıdır. Bu istiqamətdə biz hazırda şəbəkə operatoru ilə, digər qurumlarla, müxtəlif tərəfdaşlarla birgə işləyir, ideya mübadiləsi aparırıq ki, bu proses necə daha səmərəli ola bilər".

Bunu "SOCAR Green" şirkətinin baş direktoru Elmir Musayev Bakı İqlim Fəaliyyəti Həftəsində (BCAW2025) çıxışı zamanı bildirib.

O qeyd edib ki, şəbəkə həlləri dedikdə, mini-şəbəkələr, mərkəzləşmədən kənar sistemlər, enerji saxlama texnologiyaları, o cümlədən hidroakkumulyasiya, batareya əsaslı enerji saxlama sistemləri və müxtəlif batareya texnologiyaları nəzərdə tutulur:



*"Enerji sənayesində texnologiyalar çox sürətlə inkişaf edir. Əvvəllər litium batareyalarından danışırdıqsa, indi vanadium əsaslı batareyalardan danışırıq. Biz bu texnologiyaları yaxından izləyir və Azərbaycan üçün hansıların tətbiq oluna biləcəyini araşdırırıq ki, şəbəkəni optimallaşdıraq və bərpa olunan enerjinin daha çox hissəsini sistemə inteqrasiya edə bilək".*

"SOCAR Green" rəsmisi vurğulayıb ki, ikinci məsələ maliyyələşmədir: "Bu layihələrin maliyyələşdirilməsi əsas şərtlərdən biridir. COP29 zamanı da maliyyə məsələləri ən önəmli mövzulardan biri kimi müzakirə olunmuşdu. Şirkət və investisiya tərəfini təmsil edən qurum kimi düşünürəm ki, bu sahədə daha çox iş görülməlidir. Xüsusilə beynəlxalq maliyyə institutlarının dəstəyi vacibdir. Onların maliyyələşməni daha səmərəli, daha faydalı etməsi, biznes üçün həddən artıq mürəkkəb və bürokratik yanaşmadan uzaqlaşması önəmlidir".

# "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması ilə bağlı iclas keçirilib

Energetika Nazirliyində "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" layihəsinin hazırlanması məqsədilə yaradılmış "Yaşıl enerji məkanı" üzrə Alt İşçi qrupun III iclası keçirilib.

Energetika naziri Pərviz Şahbazovun rəhbərliyi və aidiyyəti qurumların iştirakı ilə keçirilmiş iclasda Strategiya layihəsinin "yaşıl enerji məkanı" məqsədi üzrə hazırlanmış "Tədbirlər Planı" müzakirə edilib.

"Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" milli prioritetinə uyğun olaraq müəyyənləşdirilmiş 7 istiqamət üzrə 46 tədbir təklifləri və həmçinin enerji sektorunun inkişafı üzrə hədəf indikatorları barədə məlumatlar verilib.

Bu tədbirlərin icra perspektivləri və maliyyələşmə imkanları nəzərdən keçirilib.



# «Евразийская хартия многообразия и многополярности в XXI веке»

***(август 2025 г., журнал «Россия в глобальной политике»)***

Одна инициатива, связанная с Беларусью, в последнее время привлекает большой интерес. Это идея разработки Евразийской хартии многообразия и многополярности в XXI веке. Впервые она была озвучена на Международной конференции по евразийской безопасности, состоявшейся в Минске в октябре 2023 года, когда Республика Беларусь предложила разработать Евразийскую хартию «как руководство для нашей собственной консолидации и общего прогрессивного развития». Инициатива не возникла на пустом месте. Скорее, она была вызвана реальными геополитическими потребностями и устремлениями. Более того, инициатива логически вытекала из другой важной инициативы Беларуси, призывавшей страны мира признать многообразие путей к прогрессивному развитию. Этот призыв впервые прозвучал из уст президента Беларуси Александра Лукашенко на Саммите ООН в 2005 году.

Инициатива «разнообразия» была выдвинута в период глобальной неопределенности, возникшей в результате так называемого однополярного момента с сопутствующей ему односторонностью и игнорированием международного права. В этой связи посредством своей инициативы Беларусь стремилась внести вклад в усилия других государств, направленных на формирование справедливого международного порядка, в котором страны могли бы жить в мире и реализовывать свои устремления. Однако сегодняшний мир выглядит еще более неопределенным, чем тот мир, который существовал в период однополярного момента. По сути, он даже еще более нестабилен, чем мир четырех десятилетней давности, потому что, несмотря на идеологическое и геополитическое соперничество, Советскому Союзу и Соединенным Штатам удавалось сосуществовать в своего рода равновесии, которое обеспечивало стабильность и предсказуемость, необходимые для мира и развития. Но беспорядок, созданный во времена однополярного момента — войны, конфликты, грубые нарушения международного права, массовое перемещение людей — все еще преобладает по причине усиления односторонних подходов во внешней политике западных стран. На этом фоне Беларусь выступила с идеей разработать Евразийскую хартию.

Инициатива основывается на многих предыдущих усилиях Беларуси, помимо инициативы «разнообразия», таких как, среди прочего, недавний призыв Президента А.Г.Лукашенко к проведению глобального диалога по безопасности в истинном духе Сан-Франциско. Все эти инициативы преследуют цель внести вклад в усилия по построению более безопасного мира в целом и Евразии в частности. Многие могут задаться вопросом, почему идея Хартии связана с понятиями «разнообразия» и «многополярности». Если кратко, то потому, что эти два понятия являются определяющими чертами нашего времени.

Действительно, миру всегда было присуще разнообразие, но сегодня важность этой категории становится все более очевидной на фоне быстрого распространения информационно-коммуникационных технологий, дающих людям во всем мире больше возможностей осознавать цивилизационные различия. Как следствие, люди требуют большего уважения к разнообразию, поскольку этому понятию в последние несколько десятилетий исходила угроза от политики диктата, насилия, санкций, цветных революций и подобных попыток западных стран навязать некие чуждые «псевдоуниверсальные» формы управления местным институтам и образу жизни. Что касается многополярности, то во всем мире укрепляется консенсус относительно того, что многополярность уже является объективной реальностью.

Так, конец однополярного момента ознаменовал появление множественных центров силы — или полюсов — которые сегодня определяют нашу международную жизнь. Более того, мы абсолютно убеждены в необходимости укрепления многополярности, поскольку это необходимо для эффективной многосторонности, при которой все страны мира могут участвовать в равноправном и взаимовыгодном сотрудничестве. Идея Хартии уже обсуждалась на некоторых международных форумах.

Наблюдается устойчивый рост интереса к этой инициативе. Немаловажно, что Президенты Беларуси и России также высказались в поддержку идеи в своих публичных заявлениях. Беларусь и Россия изложили свои «предварительные взгляды» на Хартию в документе под названием «Общее видение Евразийской хартии разнообразия и многополярности в XXI веке». В этом документе, состоящем из 21 параграфа, две страны представили, среди прочего, как они рассматривают разнообразие и многополярность, как они оценивают роль



*М.Рыженков,*
*Министр иностранных дел Беларуси*

Евразии и ее влияние на мировые процессы, и что они собираются предпринимать для реализации совместного видения. Несмотря на эту растущую деятельность, связанную с Хартией, Минск не может избавиться от ощущения, что наши евразийские партнеры хотели бы видеть большую ясность в отношении инициативы и, в частности, в отношении ее геополитического обоснования, целей, процесса и т. д. Хотя вышеупомянутое «Общее видение» дает некоторые ответы на вышеуказанные вопросы, мы не можем не согласиться с тем, что действительно требуется более содержательный и подробный ответ, особенно через призму нынешних геополитических событий в Евразии. Евразия: Европа наконец встречается с Азией или отдаляется от нее? Сравнительно недавно в моду вошло употребления понятия Евразии. Действительно, это суперконтинент, который охватывает весьма значительную часть земного шара, и где проживает около 70 процентов мирового населения. Евразия является очень разнообразным регионом с точки зрения цивилизаций, рас, культур, религий, ценностей, стран, их политических, экономических и социальных систем и т. д. Важно, что сегодня это также ключевой двигатель мирового экономического развития, поскольку на континенте расположены наиболее динамично развивающиеся страны и их динамичные региональные экономические блоки. Тем не менее, несколько десятилетий назад понятие Евразии вряд ли было столь популярным в обиходе. Так, до недавнего времени такой феномен рассматривался бы как парадокс, по той причине, что Евразия была континентом, содержащим, по сути, два отдельных мира – Европу и Азию. В то время как граница между Европой и Азией всегда была неопределенной и иллюзорной, разделение между двумя регионами было реальным, конечно же, в политическом и временном плане, но также, в определенной степени, в пространственном отношении, поскольку обе части были довольно слабо связаны физической инфраструктурой и механизмами сотрудничества.

Политическое разделение между Европой и Азией стало результатом хищнической политики по отношению к Азии в прошлом со стороны Западной Европы, которая стремилась подчинить и разграбить азиатские страны. Что особенно интересно, так это то, что с тех пор не произошло каких-либо существенных изменений в мышлении европейцев относительно Азии, так как нынешний Европейский союз по-прежнему рассматривает Азию как соперника и источник опасности для своих собственных интересов, в то время как азиатские страны никогда не смотрели на Европу в подобном свете. В силу ряда факторов Европа смогла получить значительное преимущество перед Азией. Одним из ключевых факторов была промышленная революция, которая позволила европейским странам не только быстро развиваться и модернизироваться, но и подчинить Азию. Азия, тем временем, как гласит общепринятая мудрость, придерживаясь своих «традиционных путей», пропустила начальные этапы промышленной революции и была покорена Европой в военном отношении.

В результате, в начале XIX века образовался разрыв в развитии между Европой и Азией, который лишь увеличивался на протяжении XIX и большей части XX века. Вместе с тем, существовала надежда в отношении того, что в силу растущего национализма в Азии и общего технологического развития в какой-то момент в будущем произойдет конвергенция Европы и Азии. Все зависело от того, когда и как Азия сможет догнать Европу. Крушение европейских империй в Азии после Второй мировой войны стало первым шагом в этом направлении. Вскоре за этим последовал подъем некоторых азиатских стран, которые начали активно совместно работать в целях продвижения общих приоритетов развития. Наиболее ярким примером такой тенденции служит создание АСЕАН в 1967 году, организации из 10 государств-членов, которая успешно реализует свои цели уже на протяжении многих десятилетий.

Окончание холодной войны и усиление глобализации, сопровождавшееся быстрым распространением свободной торговли, знаний, финансов, инвестиций и технологий, стало еще одним мощным попутным ветром в поддержку усилий Азии по наверстыванию упущенного. Действительно, аутсорсинг производства из развитых стран позволил многим азиатским государствам на протяжении десятилетий демонстрировать двузначные показатели роста и помог им вывести из нищеты сотни миллионов людей. Более того, в последние десятилетия Европа и Азия стали взаимосвязаны множеством цепочек поставок, транспортных коридоров, воздушного, наземного и морского сообщения, банков, культурных обменов и т. д. Эти события преобразили Азию самым драматичным и неузнаваемым образом.

В аналогичной мере эти процессы трансформировали и Европу, так как глобальные тенденции последних десятилетий способствовали снижению ее положения в мире, в то же время увеличивая ее зависимость от других держав в Евразии. Последние три десятилетия также были отмечены энергичной интеграцией и развитием на постсоветском пространстве. Некоторые бывшие советские государства использовали европейскую интеграцию в качестве модели для своего собственного аналогичного процесса, который европейцы сегодня предпочитают игнорировать, отказываясь от взаимодействия с Евразийским экономическим союзом и другими региональными структурами, действующими на постсоветском пространстве. Иногда ситуация доходит до абсурда со стороны некоторых членов Евросоюза, что, например, демонстрирует случай с одним из прибалтийских соседей Беларуси, который сознательно встал на путь обострения отношений с Китаем. В целом, новые интеграционные структуры, возникшие на территории бывшего Советского Союза, хорошо вписались в феномен роста Азии, став частью зарождающейся евразийской модели сотрудничества. Таким образом, разрыв в развитии, разделявший Европу и Азию на протяжении почти двух столетий, неуклонно сокращается и сегодня стал менее значительным, чем он был в прошлом. В этой связи стало возможным говорить о Европе и Азии как об одном континенте, как о единой структуре и размышлять отныне в терминах единой Евразии, простирающейся от Лиссабона до Манилы.

Одним из лучших и наиболее эффективных проявлений этих новых реалий в Евразии является инициатива Китая «Один пояс, один путь», представляющая собой попытку возродить древний Шелковый путь через соединение десятков стран в Азии и Европе с тем, чтобы все ее участники разделяли плоды экономического развития и процветания. Беларусь, как и некоторые другие европейские страны, также извлекает выгоду из этой жизненно важной трансконтинентальной инициативы. В силу предыдущего неравномерного развития Европы и Азии страны и народы Евразии в целом не могли в полной мере использовать тот огромный потенциал развития, который предоставляли огромные ресурсы континента. Они также никогда не имели общеконтинентальной безопасности, которая позволила бы евразийским государствам эффективно реализовывать приоритеты развития. Вместо этого, ландшафт безопасности на континенте всегда был разделен и фрагментирован, как, например, в рамках СБСЕ/ОБСЕ, как будет продемонстрировано далее в статье. Как следствие, вряд ли какой-либо другой континент был свидетелем такого большого количества вооруженных конфликтов и человеческих страданий, как Евразия. Таким образом, Евразия в настоящее время является местом огромных возможностей для ее стран и народов. Путь к реализации этих возможностей лежит через реализацию комплексных подходов, которые учитывали бы целостность, уникальность, сложность и разнообразие Евразии, а также способствовали бы консолидации и интеграции суперконтинента в интересах его жителей. Беларусь считает, что вышеуказанная задача может быть реализована посредством Евразийской хартии разнообразия и многополярности в XXI веке. Но прежде, чем затронуть более детально отдельные элементы Хартии, имеет смысл рассмотреть определенные попытки из прошлого, которые преследовали цель консолидации Евразии или ее частей. Ознакомление с этим прошлым опытом, в свою очередь, поможет лучше понять смысл идеи Хартии и увидеть возможности реализации этой инициативы.

Эксперимент СБСЕ/ОБСЕ или секретный инструмент Запада? За последние полвека в Евразии произошел интересный эксперимент, который можно охарактеризовать как попытку консолидации, хотя не всего континента, а лишь некоторых его частей. Это эксперимент с функционированием Совещания по безопасности и сотрудничеству в Европе (СБСЕ), которое позже было преобразовано в Организацию по безопасности и сотрудничеству в Европе (ОБСЕ). По сути, это был евроцентричный или, если хотите, евроатлантический эксперимент, свидетельствующий о разделении Европы и Азии, который существовал пять десятилетий назад. Изначально это был прагматичный и взаимовыгодный эксперимент, который принес важные позитивные результаты, в первую очередь, в снижении угрозы ядерной и конвенциональной войны в Европе, а также в создании механизмов контроля над вооружениями, укреплении доверия и взаимопонимания между заинтересованными сторонами.

Действительно, в основе процесса лежала вера в возможность не только примирения двух идеологических лагерей в Европе, но и выстраивания между ними модели прагматичного, предсказуемого и заслуживающего доверия взаимодействия. Тогдашнее советское руководство заслуживает полного признания за формулирование этой идеи, которую оно начало распространять в контактах с западными коллегами примерно с середины 1960-х годов с предложением начать соответствующий процесс. Инициатива нашла отклик в кругах принятия решений на Западе несколько лет спустя, в начале 1970-х годов, когда США приняли на вооружение политику разрядки и когда в некоторых ключевых западных странах к власти пришли политики с «внестандартным» мышлением, такие, как Вилли Брандт из Западной Германии. Таким образом, Хельсинкский заключительный акт 1975 года и СБСЕ можно по праву назвать детьми разрядки.

